## 2014/2015-ci tədris ili üçün ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə

# QƏBUL İMTAHANI PROQRAMLARI

# AZƏRBAYCAN DİLİ

***(bütün ixtisas qrupları üçün)***

*2014/2015-ci tədris ili üçün Azərbaycan dilindən qəbul imtahanı proqramı Təhsil Nazirliyinin 09.10.2002-ci il tarixli 967 nömrəli əmri ilə təsdiq edilmiş "Ümumtəhsil məktəblərində V–XI siniflər üçün Azərbaycan dili proqramı" və müvafiq dərsliklərin yeni nəşri üzrə hazırlanmışdır.*

*"Azərbaycan dilinin quruluşu" (X sinif) üzrə mövzular aşağı siniflərdə (V-IX siniflərdə) keçilən bazis mövzularla birləşdirilmişdir. "Azərbaycan dili" fənnindən test tapşırıqları bütün dərsliklərdəki materiallar əsasında hazırlanmışdır.*

*Abituriyentlərin nəzərinə çatdırırıq ki, əvvəlki illərdə tərkibi say, tərkibi əvəzlik, tərkibi fel, tərkibi zərf, tərkibi bağlayıcı, tərkibi modal söz adı altında getmiş materiallar həmin nitq hissəsinin quruluşca mürəkkəb növü kimi veriləcək. Ənənəvi məsdər, feli sifət və feli bağlama tərkibi anlayışları saxlanılır, cümlənin sintaktik təhlili ilə bağlı məqamlarda onların bir bütöv üzv kimi götürülməsi zəruri sayılır.*

*Artıq beşinci ildir ki, Azərbaycan dilindən qəbul imtahanı proqramına bütün ixtisas qrupları üzrə müəyyən əməli yazı nümunələrinin (ərizə, arayış, akt, elan, protokol, rəy, izahat və s.) tərtibi vərdişlərini yoxlamağı nəzərdə tutan əlavələr edilmiş və burada Təhsil Nazirliyinin təsdiq etdiyi Azərbaycan dili proqramının* ***rabitəli nitqin inkişafı*** *bölməsinin müvafiq materialları əsas götürülmüşdür. Beləliklə, abituriyent əməli yazı (sənəd) tərtibi vərdişlərinə yiyələnmək üçün konkret əməli yazı nümunəsinin növünü müəyyən etməyi, yarımçıq formanı tamamlamağı, orada buraxılmış səhvləri tapmağı, əməli yazı nümunələrinə dair nəzəri suallara cavab verməyi bacarmalıdır.*

*Qəbul imtahanı proqramı TQDK-nın nəzdindəki "Azərbaycan dili" fənni üzrə elmi-metodiki seminarda müzakirə olunaraq qəbul edilmişdir. Müzakirələrdə TQDK-nın Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Quba, Ağcabədi, Göyçay regional bölmələri ilə yaradılan internet bağlantısı vasitəsilə müvafiq regionların müəllimləri də iştirak etmişlər. Builki qəbul imtahanlarında da sual kitabçalarına daxil ediləcək test tapşırıqları tərtibinin elmi-metodiki prinsipləri, şərtləri dəyişməz olaraq qalır:* ***yanlış, mübahisəli, ziddiyyətli görünən materiallar üzrə testlər tərtib olunmur və sual kitabçalarına salınmır.***

*Abituriyentlər həmçinin nəzərə almalıdırlar ki, düzgün yazı vərdişlərini yoxlamaq üçün sözlər 2006-cı ildən sual kitabçalarında Nazirlər Kabinetinin 5 avqust 2004-cü il tarixli qərarı ilə təsdiq edilmiş yeni orfoqrafiya qaydalarına uyğun şəkildə verilir. Elə buna görə də müvafiq orfoqrafiya qaydalarını öyrənmək zəruridir.*

***Azərbaycan dilindən*** *imtahana hazırlaşan abituriyentlər qəbul imtahanı proqramında nəzərdə tutulmuş materialı dərindən bilməli, təriflərə, müqayisələrə, dil qanunauyğunluqlarına, Azərbaycan dilinə xas olan fonetik, leksik, qrammatik qaydalara, eləcə də digər nəzəri və praktik məsələlərə xüsusi diqqət yetirməli, o cümlədən aşağıdakıları bacarmalıdırlar:*

- *sözləri fonetik, leksik, morfoloji və sintaktik cəhətdən təhlil etməyi;*
- *əsas nitq hissələrinin müxtəlif cümlə üzvləri kimi işlədilməsi məqamlarını fərqləndirməyi;*
- *vasitəsiz nitq modelləri ilə işləməyi;*
- *cümlə tiplərini müxtəlif baxımdan araşdırmağı;*
- *cümlədə söz sırasını düzgün müəyyənləşdirməyi;*
- *dil, dilçilik elmi, nitq mədəniyyəti və üslubiyyatla bağlı əsas anlayışları fərqləndirməyi;*
- *sözlərin tərkibi, cümlələrin sintaktik quruluşu ilə bağlı sxemlərlə işləməyi;*
- *orfoqrafiya, orfoepiya və durğu işarələri qaydalarına əməl etməyi;*
- *əməli yazı nümunələrini tərtib etməyi və onların özünəməxsus cəhətlərini ayıra bilməyi.*

***FONETİKA***

Danışıq səsləri və onların əmələ gəlməsi. Danışıq üzvləri. Sait və samit səslər. Saitlərin bölgüsü: qalın və incə saitlər; açıq və qapalı saitlər; dodaqlanan və dodaqlanmayan saitlər. Bəzi saitlərin uzun tələffüzü. Samitlərin növləri: kar və cingiltili samitlər. Ahəng qanunu. Qalın və incə saitlərin ahəngi. Bəzi sözlərdə ahəngin pozulması. Əlifba. Səs və hərf. Azərbaycan əlifbası. Səslərin deyilişi və hərflərin adları. Qoşasaitli və qoşasamitli sözlərin yazılışı və tələffüzü. Cingiltili və kar samitlərin qarşılaşdırılması. Sözlərin sonunda cingiltili samitlərin yazılışı və tələffüzü. Sonu *q* və *k*

ilə bitən çoxhecalı sözlərin yazılışı və tələffüzü. Sonu qoşasamitli təkhecalı sözlərin yazılışı, [k'] səsinin yazıda ifadəsi. *k* hərfinin iki səsi ifadə etməsi və iki cür adlanması: *ke, ka*. Heca. Sözün sətirdən sətrə keçirilməsi qaydaları. Vurğu. Azərbaycan sözlərində vurğunun yeri. Heca vurğusunun sözün mənasına təsiri. Vurğu qəbul edən hecadakı sait, uzanan sait, onların fərqləndirilməsi. Vurğu qəbul etməyən şəkilçilər.

***Fonetik təhlil.***

### LEKSİKA

Leksika haqqında anlayış. Dildəki sözlərin hamısının birlikdə dilin lüğət tərkibini təşkil etməsi. Sözün leksik və qrammatik mənası. Sözün həqiqi və məcazi mənası. Təkmənalı və çoxmənalı sözlər. Çoxmənalı sözlərdə əsas məna və törəmə məna. Omonimlər. Onların çoxmənalı sözlərdən fərqi. Bəzi sözlərin həm omonim, həm də çoxmənalı söz kimi işlənə bilməsi. Omonimliyə yaxın sözlər və onların fərqləndirilməsi. Sinonimlər. Sinonim sözlərin arasında incə semantik fərqlərin olması. Antonimlər. Ümumişlək və ümumişlək olmayan sözlər. Terminlər. Dialekt sözlər. Köhnəlmiş sözlər, neologizmlər. Əsl Azərbaycan sözləri və alınma sözlər. Ərəb-fars və rus-Avropa mənşəli alınma sözlər.

***Frazeoloji birləşmələr.*** Bu birləşmələrdə sözlərin məcazlaşması. Frazeoloji birləşmələrin omonimliyi, sinonimliyi, antonimliyi.

***Lüğətlər.*** Lüğətlər haqqında anlayış. İzahlı lüğətlər. Orfoqrafiya, orfoepiya və tərcümə lüğətləri.

***Sözün leksik təhlili.***

### SÖZÜN TƏRKİBİ VƏ SÖZ YARADICILIĞI

***Sözün tərkibi: kök və şəkilçi.*** Azərbaycan dilində söz kökünün lüğəvi mənaya malik olması, sabitliyi, fonetik cəhətdən dəyişməməyi, ayrılıqda (şəkilçisiz) işlənə bilməsi.

Leksik və qrammatik şəkilçilər. Azərbaycan dilində söz kökünə eyni zamanda bir neçə leksik və qrammatik şəkilçinin artırıla bilməsi. Leksik və qrammatik şəkilçilərin sıralanma qaydası. *Eyniköklü sözlər*. Eyniköklü sözlər kökü eyni olan düzəltmə sözlər kimi. Eyniköklü sözlər və eyni sözün müxtəlif formaları. Sözün başlanğıc forması. Azərbaycan dilinin öz şəkilçiləri və alınma şəkilçilər. Ön şəkilçilər. Alınma şəkilçilərin ancaq leksik şəkilçilərdən ibarət olması.

Şəkilçilərin yazılışca növləri: iki, dörd və birvariantlı şəkilçilər. Azərbaycan dilinin öz şəkilçilərinin, bir qayda olaraq, ahəng qanununa uyğun iki və ya dördvariantlı yazılması. Birvariantlı milli şəkilçilərimiz: *-daş, -gil, -şın, -sal..*

Söz yaradıcılığının əsas üsulları; sözlərə leksik (sözdüzəldici) şəkilçilər artırmaqla yeni sözlərin əmələ gəlməsi; sözlərin birləşməsi və ya təkrarı yolu ilə yeni sözlərin əmələ gəlməsi. Leksik yolla söz yaradıcılığı.

Düzəltmə sözlərin əmələ gəlməsi.

İki və daha artıq leksik şəkilçisi olan düzəltmə sözlər.

Mürəkkəb sözlər. Mürəkkəb sözlərin əmələgəlmə yolları. Onların yazılışı. Bitişik və defislə yazılan mürəkkəb sözlər. Bəzi mürəkkəb sözlərin ayrı yazılması.

***Sözün tərkibinə görə təhlili***

### MORFOLOGİYA

*Morfologiya nitq hissələri haqqında təlim kimi.*

***Nitq hissələri.*** *Nitq hissəsi* anlayışı. Nitq hissələrinin bölgüsü. Əsas və köməkçi nitq hissələri.

***Əsas nitq hissələri.***

***İsim.*** *Əşya* anlayışı. Konkret və mücərrəd, canlı və cansız, xüsusi və ümumiliyindən asılı olmayaraq, bütün isimlərin *əşya* sayılması. İsim əşyanın adını bildirən əsas nitq hissəsi kimi. Onun qrammatik əlamətləri. Konkret və mücərrəd isimlər. Ümumi və xüsusi isimlər. Tək və cəm isimlər. *Toplu isimlər.* Toplu və cəm isimlərin fərqləndirilməsi. İsmin quruluşca növləri. Sadə isimlər. Düzəltmə isimlər və onların əmələ gəlməsi. Adlardan düzələn isimlər. Fellərdən düzələn isimlər. İsim düzəldən bəzi şəkilçilərin *(-stan; -qı, -ki* və s.) yazılışı. Mürəkkəb isimlərin əmələ gəlməsi və onların yazılışı. Mürəkkəb adlar. Mürəkkəb adlar ismi birləşmələrin bir qrupu kimi. Onların mürəkkəb isimlərdən fərqi. Mürəkkəb adlar və xüsusi isimlər. Mürəkkəb adların yazılışı. İxtisarla yazılan mürəkkəb adlar. Mürəkkəb ixtisarlara şəkilçilərin artırılması qaydası. İsmin mənsubiyyətə görə dəyişməsi. Mənsubiyyət şəkilçiləri. Mənsubiyyət şəkilçilərinin şəxs şəkilçilərindən fərqi. *Tale, mənbə, mənşə, mövqe, mənafe, su, nə* sözlərinin mənsubiyyətə görə dəyişməsi. İsmin hallanması. Yiyəlik və təsirlik hallarının müəyyənlik və qeyri-müəyyənlik bildirməsi. Yiyəlik və təsirlik hal şəkilçiləri ilə II və III şəxs mənsubiyyət şəkilçilərinin omonimliyi. Bu şəkilçilərin fərqi. Saitlə başlanan şəkilçi artırdıqda bəzi ikihecalı milli və alınma söz köklərində (*fəsil, şəkil, alın, beyin* və s.) son saitin (qapalı saitin) düşməsi. Bəzi isimlərin sifətləşməsi. Sifətləşən isimlərin yenə isim olaraq qalması. İsmin cümlədə rolu.

***Sifət.*** Sifət bir nitq hissəsi kimi; onun qrammatik əlamətləri. Sifətlərin quruluşca növləri. Sadə sifətlər. Düzəltmə sifətlər: isimdən düzələn sifətlər, feldən düzələn sifətlər. Mürəkkəb sifətlər. Onların yazılışı. Sifətin müqayisə dərəcələri: adi dərəcə, azaltma dərəcəsi, çoxaltma dərəcəsi. Sifətin isimləşməsi. İsimləşən sifətlərin yenə sifət olaraq qalması. Həm sifət, həm də zərf kimi işlənə bilən sözlər (yaxşı, pis, gözəl və s.). Sifətin cümlədə rolu.

***Say.*** Say bir nitq hissəsi kimi; onun qrammatik əlamətləri. Sayın quruluşca növləri. Sadə, düzəltmə,

mürəkkəb saylar. Sayın mənaca növləri: miqdar və sıra sayları. Miqdar saylarının növləri: müəyyən miqdar sayları, qeyri-müəyyən miqdar sayları, kəsr sayları. Qeyri-müəyyən miqdar saylarından sonra gələn isimlərin cəmlənib-cəmlənməməsi. Miqdar sayları ilə isimlər arasında *numerativ sözlərin* işlənə bilməsi. Bəzi numerativ sözlərin (nəfər, baş, ədəd, cüt, dəst və s.) *üç-dörd, beş-altı* tipli qeyri-müəyyən miqdar sayları ilə isimlər arasında da işlədilə bilməsi. Numerativ söz və numerativ xarakterli söz. Kəsr sayları miqdar saylarının bir növü kimi. Sıra sayları. Sıra saylarının ərəb və Roma rəqəmləri ilə yazılışı. Sayların yazılışı. Sayın isimləşməsi. Bu vaxt onların yenə say olaraq qalması. Sayın cümlədə rolu.

***Əvəzlik.*** Əvəzlik isim, sifət, say və digər əsas nitq hissələrinin yerində işlənən söz kimi. *Qrammatik şəxs* anlayışı. Əvəzliklərin mənaca növləri. Şəxs əvəzlikləri. Onların hallanması. İşarə əvəzlikləri. *Elə, belə* əvəzliklərinin həm sifət, həm də zərf yerində işlənə bilməsi. *O* əvəzliyinin omonimliyi: həm şəxs, həm də işarə əvəzliyi kimi işlənməsi. *Bu* işarə əvəzliyinin bəzən ismi əvəz etməsi (isimləşməsi). *O, bu* əvəzlikləri mübtəda vəzifəsində olarkən onlardan sonra vergülün işlənmə məqamları. Sual əvəzlikləri. Qeyri-müəyyən əvəzliklər. Təyini əvəzliklər. Bəzi işarə, sual, qeyri-müəyyən əvəzliklərinin də hallana bilməsi. Əvəzliyin cümlədə rolu.

***Fel.*** Fel bir nitq hissəsi kimi; onun qrammatik əlamətləri. Felin quruluşca növləri. Sadə fellər. Sadə fellərin, eləcə də kökü fel olan bütün sözlərin Azərbaycan mənşəli olması. Düzəltmə fellər. Düzəltmə fellərin əmələ gəlməsi. İsimdən düzələn fellər. Feldən düzələn fellər. Mürəkkəb fellər. Təsirli və təsirsiz fellər. Təsirli feldən təsirsiz, təsirsiz feldən təsirli fel yaranması. Felin qrammatik məna növləri: məlum, qayıdış, icbar, qarşılıq-birgəlik, məchul fellər. Felin qrammatik məna növləri və təsirlilik. *Felin təsriflənən formaları.* Felin şəkilləri felin təsriflənən formaları kimi. Əmr şəkli. Xəbər şəkli felin zamana, şəxsə və kəmiyyətə görə dəyişməsi ilə səciyyələnən forması kimi. Zaman şəkilçiləri xəbər şəklinin tanınma əlaməti kimi. İndiki zaman. Keçmiş zaman: şühudi keçmiş, nəqli keçmiş. Gələcək zaman: qəti gələcək, qeyri-qəti gələcək. Felin vacib, lazım, arzu və şərt şəkilləri. Felin bu şəkillərinin məzmunca gələcək zaman ifadə etməsi. Fel şəkillərinin *idi, imiş, isə* köməkçi felləri (hissəcikləri) ilə işlənməsi. Bu hissəciklərin digər nitq hissələri ilə də işlənə bilməsi (*həkim idi, dadlı imiş, yuxarıda isə* və s.). Onların yazılışı. Təsdiq və inkar fellər: inkarlığın *-ma (-mə), -m şəkilçisi* (bəzən *deyil* sözü) ilə ifadə olunması. İnkar şəkilçisinin isim düzəldən eyni formalı şəkilçi ilə omonimliyi ( dondúrma, vúrma ; dondurma′, vurma′). *Felin təsriflənməyən formaları.* Məsdər, feli sifət, feli bağlama felin təsriflənməyən formaları kimi. *Məsdər.* Məsdərdə felə və ismə məxsus əlamətlər: isim kimi hallanması, mənsubiyyətə görə dəyişməsi. Cümlədə rolu. İsmi xəbər olması. *Feli sifət.* Feli sifətdə felə və sifətə məxsus əlamətlər. Feli sifət şəkilçiləri. Feli sifətlərin isimləşməsi. İsmi xəbər vəzifəsində işlənməsi. Feli sifət və feldən düzələn sifət. *Feli bağlama.* Feli bağlamada felə və zərfə məxsus əlamətlər. Feli bağlama şəkilçiləri. Feli bağlamaların, bir qayda olaraq, cümlədə zərflik kimi çıxış etməsi. Məsdər, feli sifət və feli bağlamaların cümlədə tərkib əmələ gətirməsi.

Felin cümlədə rolu.

***Zərf.*** Zərf bir nitq hissəsi kimi; onun qrammatik əlamətləri. Fellə bağlılığı. Zərfin quruluşca növləri. Sadə zərflər. Düzəltmə zərflər və onların əmələ gəlməsi. *-casına$^{2}$, -la$^{2}$, -ən* kimi bəzi zərf düzəldən şəkilçilərin vurğu qəbul etməməsi. Mürəkkəb zərflər və onların əmələ gəlməsi. Zərfin mənaca növləri: tərzi-hərəkət, yer, zaman, miqdar zərfləri. Bəzi sözlərin yerinə görə zərf, sifət, say, isim və qoşma kimi işlənə bilməsi. Bəzi zərflərin isimləşə bilməsi. Zərfin cümlədə rolu.

### ***KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ***

***Qoşma.*** Qoşmanın köməkçi nitq hissəsi kimi qrammatik səciyyəsi. Sözlərə qoşularaq onlarla əlaqə yaratması. Qoşmanın qoşulduğu hallar. İsmin adlıq halı ilə işlənən qoşmalar. İsmin yiyəlik halı ilə işlənən qoşmalar. İsmin yönlük halı ilə işlənən qoşmalar. İsmin çıxışlıq halı ilə işlənən qoşmalar. İsmin bir neçə halı ilə işlənə bilən qoşmalar (*-kimi, qədər* qoşmaları). Qoşmaların yaratdığı məna növləri. Bəzi qoşmaların sinonimliyi. Digər nitq hissələri ilə oxşar olan bəzi qoşmaların fərqləndirilməsi. Qoşmaların yazılışı. Bir-hecalı qoşmaların (*-can, -cən, -dək, -tək*) qoşulduğu sözlərə bitişik yazılması (şəhərəcən, bağacan, evədək, sənintək, qəhrəmantək).

***Bağlayıcı.*** Bağlayıcı cümlə üzvləri, cümlələr arasında əlaqə yaradan köməkçi nitq hissəsi kimi. Bağlayıcıların abzaslar arasında da işlənə bilməsi. Tabesizlik və tabelilik bağlayıcıları. Bağlayıcıların mənaca növləri. Bağlayıcıların quruluşu: *sadə və mürəkkəb bağlayıcılar*. Bəzi bağlayıcıların yazılışı və onlarda vergülün işlənməsi qaydaları.

***Ədat.*** Ədatların qrammatik səciyyəsi. Ədatların mənaca növləri. Qüvvətləndirici, sual, dəqiqləşdirici, məhdudlaşdırıcı, əmr, arzu və təsdiq-inkar ədatları. Ədatların yazılışı. *-da$^{2}$* bağlayıcısından sonra gələn *mı$^{4}$* ədatının ayrı yazılması (*Mahmud da mı gedəcək? Məmmədin də mi işi çoxdur?*). Digər nitq hissələri ilə qarışa bilən bəzi ədatların fərqləndirilməsi.

***Modal sözlər.*** Modal sözlər söylənilən fikrə münasibəti bildirən sözlər kimi. Modal sözlərin quruluşu. Modal sözlərin mənaca növləri. Digər nitq

hissələri ilə qarışa bilən bəzi modal sözlərin fərqləndirilməsi. Modal sözlərdə durğu işarələri.

***Nida.*** Nida hiss-həyəcan ifadə edən köməkçi nitq hissəsi kimi. Nidalarda müəyyən hissi halların ifadəsi (sevinc, kədər, qorxu, əhvali-ruhiyyə ...). Nidaların yazılışı. Onlarda durğu işarələrinin işlədilməsi.

***Morfoloji təhlil.***

***SİNTAKSİS***

*Söz birləşməsi, cümlə və mətn sintaktik vahidlər kimi.*

***Söz birləşmələri.*** *Söz birləşməsi anlayışı. Sərbəst və frazeoloji birləşmələrin bir-birindən fərqi.* Söz birləşməsi və söz. Söz birləşməsi və cümlə. Əsas tərəfinin ifadə vasitəsinə görə söz birləşmələrinin növləri: ismi birləşmələr, feli birləşmələr.

İsmi birləşmələr. Təyini söz birləşmələri ismi birləşmələrin ən çox işlənən növü kimi. Birinci, ikinci və üçüncü növ təyini söz birləşmələri. Təyini söz birləşmələrinin əsas xüsusiyyətləri. Təyini söz birləşməsinə daxil olmayan ismi birləşmələr.

Feli birləşmələr. Onların formalaşması – əsas tərəfinin məsdər, feli sifət, feli bağlama ilə ifadə olunması. Məsdər, feli sifət və feli bağlama tərkibləri feli birləşmələrin spesifik növləri kimi. Bu tərkiblərin bütövlükdə bir cümlə üzvü vəzifəsində işlənməsi.

***Sintaktik əlaqələr.*** Söz birləşmələrində və cümlədə sözlər arasında məna və qrammatik əlaqələrin olması. Sintaktik əlaqələrin növləri: tabesizlik və tabelilik əlaqələri. Tabesizlik əlaqəsi. Bu əlaqədə olan sözlərin bərabərhüquqlu olması. Tabelilik əlaqəsində olan sözlərdən birinin o birinə tabe olması. Tabelilik əlaqəsinin növləri: uzlaşma, idarə və yanaşma. Uzlaşma əlaqəsi. Əsas xüsusiyyəti və qrammatik göstəriciləri. Şəxs (xəbərlik) və mənsubiyyət şəkilçiləri uzlaşmanın formal göstəriciləri kimi. İdarə əlaqəsi. Əsas xüsusiyyəti. Hal şəkilçiləri idarə əlaqəsinin formal göstəricisi kimi. Yanaşma əlaqəsi. Əsas xüsusiyyəti. Xüsusi göstəricisinin olmaması. Digər sintaktik əlaqələrdən fərqi.

***Cümlə.*** Cümlə haqqında ümumi məlumat. Cümlənin əsas nitq vahidi olması, fikir ifadə etməsi.

Məqsəd və intonasiyaya görə cümlənin növləri. Nəqli cümlə. Sual cümləsi. Sual cümləsinin növləri. Sual əvəzlikləri ilə düzələn sual cümlələri. Sual ədatları ilə düzələn sual cümlələri. Yalnız sual intonasiyası ilə düzələn sual cümlələri. Əmr cümləsi. Əmr cümləsinin xəbərinin felin əmr şəkli ilə ifadəsi. Nida cümləsi. Nida cümləsinin istifadə olunduğu yerlər.

***Cümlə üzvləri.*** *Cümlə üzvü* anlayışı. Cümlənin təşkilindəki roluna görə cümlə üzvlərinin bölgüsü: cümlənin baş üzvləri, cümlənin ikinci dərəcəli üzvləri.

***Cümlənin baş üzvləri:*** mübtəda və xəbər. Baş üzvlərin cümlənin qrammatik əsası olması. *Mübtəda.* Mübtədanın ifadə vasitələri. Adlıq halda olan sözlərlə və söz birləşmələri ilə ifadəsi. *Xəbər.* Cümlədə xəbərin rolu. Xəbərin ifadə vasitələri. Feli və ismi xəbərlər. Xəbərin mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşması. Xəbərin üçüncü şəxsin cəmində olan mübtəda ilə kəmiyyətə görə uzlaşıb-uzlaşmaması halları.

***Cümlənin ikinci dərəcəli üzvləri:*** tamamlıq, təyin, zərflik. *Tamamlıq*. Tamamlığın obyekt bildirən ikinci dərəcəli üzv olması. Vasitəsiz və vasitəli tamamlıqlar. Vasitəsiz tamamlıqların müəyyənlik və qeyri-müəyyənlik bildirməsi. Vasitəsiz tamamlığın yalnız təsirlik halındakı sözlər, söz birləşmələri ilə ifadəsi, *kimi? nəyi? nə?*, bəzən də *haranı?* sualına cavab verməsi. Vasitəli tamamlığın işləndiyi hallar. Sualları. Tamamlığın ifadə vasitələri. *Təyin.* Təyinin ifadə vasitələri və sualları. Təyinin cümlədə isimlə ifadə olunmuş hər bir üzvə aid ola bilməsi. *Zərflik. Zərf və zərflik.* Zərfliyin mənaca növləri: tərzi-hərəkət, yer, zaman, kəmiyyət, səbəb, məqsəd zərflikləri və onların ifadə vasitələri.

Cümlə üzvlərinin quruluşca növləri.

***Əlavələr.*** Əlavənin özündən əvvəlki sözü izah etməsi, konkretləşdirməsi. Əlavənin aid olduğu cümlə üzvündən sonra gəlməsi. Əlavənin işləndiyi yerlər. Əlavələrdə durğu işarələri; tire və vergüldən istifadə olunması.

***Cümlədə sözlərin sırası.*** Söz sırasının qanuna-uyğunluğu. Bu qanunauyğunluğun nəqli cümlədə daha çox gözlənilməsi. Ayrı-ayrı cümlə üzvlərinin yeri. Bəzi məqamlarda söz sırasının pozula bilməsi.

***Məntiqi vurğu.*** Cümlədə ifadə olunan fikrin daha dəqiq çatdırılmasında məntiqi vurğunun rolu. Məntiqi vurğulu sözün çox vaxt xəbərin yanında gəlməsi.

***Cümlənin həmcins üzvləri.*** *Həmcins üzv* anlayışı. Həmcins üzvlərin eyni cümlə üzvlərindən ibarət olması, eyni suala cavab verməsi, eyni üzvlə bağlı olması və öz aralarında tabesizlik əlaqəsinin olması. Həmcins üzvlərin bir-biri ilə intonasiya və tabesizlik bağlayıcıları ilə əlaqələnməsi. Həmcins üzvlərdə bəzi şəkilçilərin və köməkçi vasitələrin ixtisar oluna bilməsi. Ayrı-ayrı cümlə üzvlərinin həmcinsliyi. Xəbərin həmcins mübtədalarla uzlaşması. Həmcins və qeyri-həmcins təyinlər. Həmcins üzvlərdə *ümumiləşdirici sözlər*.

Ümumiləşdirici sözlərdə qoşa nöqtə və tire işarələrinin işlədilmə məqamları.

***Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər.*** Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmamaq anlayışı. Belə sözlərin cümlə üzvlərindən fərqi. *Xitab.* Onun müraciət bildirməsi. Xitabların mübtəda ilə oxşar və fərqli cəhətləri. Xitabın cümlədə işlənilmə yerləri. Xitabların ifadə vasitələri. Xitabın quruluşca növləri: sadə və mürəkkəb xitablar. Sadə xitabların sözlərlə ifadə olunması. Mürəkkəb

xitabların söz birləşmələri ilə ifadə olunması. *Ara sözlər.* Onların nitqdə rolu – ifadə olunan fikrə münasibət bildirməsi. İfadə vasitələri. Ara sözlərin formaca növləri: söz formasında olanlar, söz birləşməsi formasında olanlar, cümlə formasında olanlar. Ara sözlərin məna növləri. Ara söz və modal söz. Ara sözlərin cümlədə yeri və onlarda vergülün işlədilməsi qaydaları.

***Cümlələrin şəxsə görə növləri.*** Bu bölgüdə ***şəxs*** sözünün termin məqamında olması və "mübtəda" mənasında işlənməsi.

Növündən asılı olaraq, cümlədə mübtədanın işlədilib-işlədilməməsi, cümləyə mübtəda əlavə etməyin mümkün olub-olmaması. Şəxsə görə sadə cümlənin növləri.

*Müəyyən şəxsli cümlələr*. Mübtədalı müəyyən şəxsli cümlələr. Mübtədasız müəyyən şəxsli cümlələr. Belələrində mübtədanın asanlıqla təsəvvür oluna bilməsi.

*Qeyri-müəyyən şəxsli cümlələr*. Belə cümlələrdə mübtədanın olmaması. Hərəkətin qeyri-müəyyən şəxs (və ya qeyri-müəyyən şəxslər) tərəfindən icra edilməsi. Xəbərinin həmişə üçüncü şəxsin cəmində olması.

*Ümumi şəxsli cümlələr*. Belə cümlələrdə mübtədanın iştirak etməməsi və ifadə olunan fikrin qaydaya düşən, ənənəyə çevrilən bir fikir kimi qəbul edilməsi. Xəbərinin, bir qayda olaraq, III şəxsin cəmi və II şəxsin təkində olması.

*Şəxssiz cümlələr*. Belə cümlələrdə mübtədanın olmaması, mübtədanın cümləyə gətirilməsinin və ya təsəvvür edilməsinin qeyri-mümkünlüyü. Xəbərinin yalnız üçüncü şəxsin təkində olması (dəyişə bilməməsi).

*Adlıq cümlələr*. Ayrı-ayrı sözlərin və ya söz birləşmələrinin xəbərlik şəkilçisi, şəxs sonluğu qəbul etmədən sadalanaraq fikir ifadə etməsi. Belələrinin şərti olaraq *adlıq cümlə* adlanması. Adlıq cümlələrin ifadə vasitələrinin adlıq halda olması. Adlıq cümlələrin daha çox dram əsərlərinin remarkalarında işlənməsi.

***Müxtəsər və geniş cümlələr.*** İkinci dərəcəli üzvün iştirak edib-etməməsi baxımından sadə cümlənin növləri: müxtəsər cümlələr, geniş cümlələr. Müxtəsər cümlə ancaq baş üzvlərdən və ya təkcə bir baş üzvdən ibarət cümlə kimi. Geniş cümlə ikinci dərəcəli üzvü və ya ikinci dərəcəli üzvləri olan cümlə kimi.

***Söz-cümlə.*** Heç bir şəkilçidən, əlavə vasitələrdən istifadə etmədən təklikdə işlənərək, fikrin təsdiqi və inkarını bildirən sözlərin söz-cümlə kimi götürülməsi. Söz-cümlə üzvlənməyən cümlə kimi. Bəzi ədatların, modal sözlərin, nidaların söz-cümlə mövqeyində işlənməsi.

***Mürəkkəb cümlə.*** *Mürəkkəb cümlə* anlayışı. Mürəkkəb cümlənin növləri: tabesiz mürəkkəb cümlə, tabeli mürəkkəb cümlə. Bunların ümumi və fərqli cəhətləri.

*Tabesiz mürəkkəb cümlələr*. *Tabesiz mürəkkəb cümlə* anlayışı. Tabesiz mürəkkəb cümlənin tərkib hissələrinin bərabərhüquqlu olması, aralarında tabesiz bağlılığın olması. Tabesiz mürəkkəb cümlə və həmcins xəbərli sadə cümlə. Tərkib hissələrini bağlayan vasitələr: intonasiya, bağlayıcılar. Tabesiz mürəkkəb cümlələrdə məna əlaqələri. Zaman (eynizamanlılıq), ardıcıllıq, səbəb-nəticə, aydınlaşdırma, qarşılaşdırma və bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr. Bağlayıcısız və bağlayıcılı tabesiz mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında istifadə edilən durğu işarələri.

*Tabeli mürəkkəb cümlələr*. *Tabeli mürəkkəb cümlə* anlayışı. Tərkib hissələri arasında tabeli bağlılığın olması. Baş və budaq cümlələr. Baş və budaq cümlələrin yeri. Budaq cümləni baş cümləyə bağlayan vasitələr: intonasiya, bağlayıcı, bağlayıcı sözlər, bəzi əvəzliklər, modal sözlər (düzü, doğrusu, düzdür, doğrudur), şəkilçi və ədatlar. Bağlayıcı sözlərin bağlayıcılardan fərqi. Əvəzlik-qəliblərin (o cümlədən qarşılıq sözlərin) baş cümlədə, bağlayıcı sözlərinsə budaq cümlələrdə işlənməsi. Mübtəda, xəbər, tamamlıq, təyin budaq cümləli tabeli mürəkkəb cümlələr. Zərflik budaq cümləli tabeli mürəkkəb cümlələr: tərzi-hərəkət, zaman, yer, kəmiyyət, səbəb, məqsəd budaq cümlələri. Şərt budaq cümləli, qarşılıq-güzəşt budaq cümləli tabeli mürəkkəb cümlələr.

Tabeli mürəkkəb cümlələrdə durğu işarələri.

***Vasitəsiz və vasitəli nitq.*** *Vasitəsiz nitq*. Başqasının nitqinin verilmə üsulları. Hər hansı bir şəxsin fikrinin eynilə, heç bir dəyişiklik edilmədən verilməsi. *Vasitəli nitq*. Hər hansı şəxsin fikrinin deyildiyi və ya yazıldığı kimi yox, həmin fikrin məzmununu saxlamaqla, ifadəsini bir qədər dəyişməklə verilməsi.

Vasitəsiz nitqli cümlələrdə müəllifin sözlərinin ən çox nitq və təfəkkür felləri ilə (dedi, söylədi, soruşdu, əmr etdi, düşündü, fikirləşdi və s.) ifadə olunması.

Vasitəsiz nitqin vasitəli nitqə çevrilə bilməsi.

Vasitəsiz nitqli cümlələrdə durğu işarələrinin (dırnaq, qoşa nöqtə, vergül, tire) işlədilməsi.

***Sintaktik təhlil.***

***DURĞU İŞARƏLƏRİ.***

***DİL HAQQINDA ÜMUMİ MƏLUMAT.*** Dilin ictimai həyatda rolu. *Ana dili* anlayışı. Azərbaycan dili Azərbaycan xalqının milli dili kimi. Azərbaycan ədəbi dili. Azərbaycan dilinin türk dilləri ailəsində yeri. Azərbaycan dili iltisaqi dil kimi.

Dil və xalqın tarixi. Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi.

Yazı. Yazının növləri.

Dilin quruluşu. Dilin funksiyaları. Dilçilik. Dilçiliyin əsas sahələri. Etimologiya. Lüğətçilik. Dialektologiya. Dilçiliyin digər elmlər içərisində yeri.

***NİTQ MƏDƏNİYYƏTİ.*** *Nitq mədəniyyəti* anlayışı. Nitq mədəniyyəti milli mədəniyyətin tərkib hissəsi kimi. Nitqin düzgünlüyü, dəqiqliyi və ifadəliliyi. Dil, nitq, nitq fəaliyyəti. Ədəbi dil. Ədəbi dilin formaları: yazılı ədəbi dil, şifahi ədəbi dil. *Nitq normaları* anlayışı. Müasir Azərbaycan ədəbi dilinin fonetik, leksik və qrammatik normaları. Onların təzahür formaları.

Natiqlik sənəti. Natiqlik sənətinin sahələri. Jestlər. Mimika. Nitq etiketləri. Onların növləri.

Nitq istisnaları.

***ÜSLUBİYYAT.*** Üslubiyyat və üslub haqqında ümumi məlumat.

Bədii üslub. Sözün poetik funksiyası (poetizm). Obrazlılıq bədii üslubun əsas göstəricisi kimi. Obrazlılığın fonetik, leksik və qrammatik səviyyədə təzahürləri. Bədii dilin təzahür formaları: şeir dili, nəsr dili, dramaturgiya dili.

Elmi üslub. Elmi üslubun xüsusiyyətləri. Sözün terminoloji funksiyası (termin).

Publisistik üslub. Publisistik üslubun təzahür formaları: bədii-publisistik dil, elmi-publisistik dil, rəsmi-publisistik dil.

Məişət üslubu. Məişət üslubunun xüsusiyyətləri. Dialoji nitq. İntonasiya və jest-hərəkət.

Rəsmi-işgüzar üslub. Rəsmi-işgüzar üslubun əsas xüsusiyyətləri. Rəsmi sənədlərin dili. İşgüzar sənədlərin dili.

Fərdi üslub. Funksional üslublar və fərdi üslub.

***ƏMƏLİ YAZI NÜMUNƏLƏRİ***

Ərizə, elan, bildiriş, anons, reklam, məktub, arayış, tərcümeyi-hal, teleqram, izahat, akt, protokol, annotasiya, rəy, vəkalətnamə, hesabat.

Bu sənəd formalarının əsas xüsusiyyətləri. Konkret əməli yazı (sənəd) nümunələrinin tərtibi qaydaları. Bu sənəd formalarının bir-birindən fərqi.

***Qeyd:*** *Elmi-metodiki seminarda I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarının sual kitabçasına Azərbaycan dili fənnindən aşağıdakı mövzularla bağlı sual və tapşırıqların daxil edilməməsi tövsiyə olunmuşdur: fonetik təhlil, sözün tərkibinə görə təhlili, morfoloji təhlil, sintaktik təhlil, əlavələr.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 2004.*
2. *R. İsmayılov, X. Qasımova, F. Şahbazlı, Q.Əmircanova. Azərbaycan dili. 5-ci sinif. Bakı, 2006.*
3. *R. İsmayılov, F. Ellazov. Azərbaycan dili. 6-cı sinif. Bakı, 2008.*
4. *R. İsmayılov, X. Qasımova, F. Ellazov. Azərbaycan dili. 7-ci sinif. Bakı, 2012.*
5. *Y. Seyidov, T. Əsədov. Azərbaycan dili. 8-ci sinif. Bakı, 2012.*
6. *Q. Kazımov, F. Şahbazlı, A. Mikayılova. Azərbaycan dili. 8-ci sinif. Bakı, 2012.*
7. *Q. Kazımov, A. Mikayılova. Azərbaycan dili. 9-cu sinif. Bakı, 2012.*
8. *T. Hacıyev, N. Cəfərov, N. Xudiyev. Azərbaycan dili. 10-cu sinif. Bakı, 2012.*
9. *T. Hacıyev, N. Cəfərov, N. Xudiyev Azərbaycan dili. 11-ci sinif. Bakı, 2012.*
10. *Azərbaycan dili. Qəbul imtahanına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait. TQDK-"Abituriyent". Bakı, 2013*
11. *Orfoqrafiya, orfoepiya lüğəti. TQDK- "Abituriyent" Bakı, 2013.*
12. *Azərbaycan dili. Test tapşırıqları topluları. V-XI siniflər. "Abituriyent" jurnalının xüsusi buraxılışları. Bakı, 2013.*


*Azərbaycan dilindən qəbul imtahanı proqramı Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəzdindəki Azərbaycan dili fənni üzrə elmi-metodiki seminarda müzakirə edilərək qəbul olunmuşdur.*

*Seminarın rəhbəri filologiya elmləri doktoru,*
***professor T.M.Hacıyev***

*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəhbərliyi proqramın tərtibində və təkmilləşdirilməsində zəhməti olan bütün seminar iştirakçılarına dərin minnətdarlığını bildirir.*